Tarix və onun problemləri, №4 2009

HİKMƏT MƏMMƏDOV
*siyasi elmlər namizədi*

# AZƏRBAYCAN RESPUBLIKASININ XARICI SIYASƏTINDƏ NEFT AMILI

Müasir beynəlxalq münasibətləri sistemi əhəmiyyətli dərəcədə dəyişikliklərə məruz qalmışdır. Qloballaşma müasir dünya siyasi xəritəsində yer almış dövlətlər arasındakı münasibətlərdə ciddi kəmiyyət və keyfiyyət dəyişikliklərini şərtləndirmişdir. Belə ki, hazırkı beynəlxalq münasibətlərin vacib məsələləri sırasında dünyanın enerji daşıyıcıları uğrundakı mübarizə özünü daha qabarıq şəkildə göstərməkdədir. Bu enerji daşıyıcıları içərisində neftin xüsusi və əvəzolunmaz yeri vardır. Çünki, müasir dünya sənaye maşının başlıca hərəkətverici qüvvəsi neftdir. Sadə bir reallığa diqqət yetirmək neftin əhəmiyyətli yerini dərk etməyə kifayət edər. Belə ki, bütün dünyada istehsal olunan elektrik enerjisinin təxminən qırx faizi neftdən alınır. (2, s.654) Deməli, digər sahələrdə aparıcı rola malik olmaqla yanaşı, neft həm də elektrik enerjisinin başlıca mənbəyi olaraq qalmaqdadır. Bu baxımdan dünyanın supergücləri arasında yer kürəsindək enerji daşıyıcıları mənbələri uğrunda savaş getdikcə daha da kəskin xarakter almaqdadır. Bu mübarizə dünyanın əsas neft istehlakçısı olan dövlətlər arasında xüsusilə kəskin gedir. Belə ki, dünyanın ən çox neft istehlak edən ölkəsi amerikadır. ABŞ-ın ardınca Çin və Hindistan kimi nəhəng dövlətlər də dünyada istehsal edilən neftin əhəmiyyətli hissəsini istehlak edirlər. Təbiidir ki, əsas mübarizə məhz bu ölkələr arasında müşahidə edilir. Bəzən belə mübarizə birbaşa hərbi toqquşmalarla müşayiət olunur. Məsələn, əksər ekspertlərin fikrincə ABŞ-ın İraka hərbi qüvvələr yeritməsinin başlıca səbəbi oradakı zəngin neft yataqlarını ələ keçirməkdən ibarət idi. Lakin müasir dövrdə enerji daşıyıcıları uğrunda mübarizə digər əsas forması daha üstünlük təşkil edir. Belə iri neft istehlakçıları zəngin neft yataqlarına malik olan ölkələrlə neftin istehsal edilməsi və dünya bazarına çıxarılması sahəsində partnyorluq etmək uğrunda mübarizəyə daha çox üstünlük verirlər. Qeyd etdiyimiz istiqamətdə mübarizə SSRİ süqut etdikdən sonra yeni bir təkan almış oldu. Belə ki, Sovet İttifaqının dağılması və soyuq müharibənin sona çatması dünyada ikiqütblü sistemin də sonunu gətirdi. (4, s.10)Dünyada qüvvələr balansı ABŞ və Avropadakı tərəfdaşlarının xeyrinə əhəmiyyətli dərəcədə dəyişdir. Yaranmış yeni geosiyasi vəziyyət sözsüz ki, ilk növbədə postsovet məkanında mövcud olan enerji mənbələrinin yenidən bölüşdürülməsi uğrunda mübarizəni aktual etdi. Məlumdur ki, postsovet məkanında ən böyük neft və qaz ehtiyatları Xəzər hövzəsindədir. Bu Azərbaycan Qərb və ABŞ üçün daha cəlbedici görünürdü. Belə ki, Azərbaycanın neft ehtiyyatları 5 miyard ton, qaz ehtiyyatları isə təxminən 6 trilyon kub metr miqdarında proqnozlaşdırılır. Xəzər hövzəsinin enerji ehtiyatlarının istismar edilməsi, istehsal olunmuş enerji daşıyıcılarının sərfəli şərtlərlə dünya bazarına çıxarılması uğrunda dünyanın böyük dövlətləri arasında əsl diplomatik savaş başlamışdır. Beləliklə, yenicə müstəqillik qazanmış Azərbaycan Respublikasının malik olduğu zəngin karbohidrogen yataqlarının kimlər tərəfindən işlənilməsi və hansı yollarla dünya bazarına çıxarılması məsələsi bütün ciddiliyi ilə öz həllini gözləyirdi. Zəngin neft və qaz yataqlarını daxili imkanları hesabına işləmək gənc Azərbaycan dövləti üçün real deyildi. Buna görə də istər-istəməz maraqlı ölkələrin də iştirakı qaçılmaz idi. (1)

Artıq qeyd etdik ki, Sovet İttifaqının dağılması ilə regionda yeni geosiyasi vəziyyət yaranmışdır. Bu yeni geosiyasi reallığın mahiyyəti də məhz yeni güc mərkəzlərinin Cənubi Qafqazda cərayan edən siyasi proseslərin fəal iştirakçılarına çevrilmələrindən

ibarət idi. Rusiyanın regionda getdikcə zəifləyən təsiri fonunda ABŞ, Avropa dövlətləri, tarixən Cənubi Qafqazda baş verən proseslərə təsir etmək uğrunda mübarizənin əsas iştirakçıları olmuş Türkiyə və İran da öz maraqlarını daha açıq şəkildə ifadə etməyə başlamışdır. Göründüyü kimi, belə bir mürəkkəb geosiyasi vəziyyətdə dünya dövlətləri arasında kifayət qədər müstəqilliyə, suverenliyə və güclü dövlətçiliyə malik bir dövlət kimi yer tutmaq böyük səylər tələb edirdi. Belə vəziyyətdə xarici siyasi kursu olduqca ehtiyyatla müəyyənləşdirmək tələb olunurdu. Artıq bəlii olduğu kimi xarici siyasi strategiyanı müəyyən edərkən enerji daşıcıları uğrunda xarici qüvvələrin maraqlarının balanslaşdırılması məsələlərinə xüsusi diqqət yetirmək lazım idi. Azərbaycan Respublikasının xarici siyasətində neft amili özünü daha aşkar şəkildə biruzə verirdi. Qeyd etmək lazımdır ki, ümumilikdə enerji daşıyıcları amilin bütövlükdə regionun ictimai-siyasi həyatında çəkisinin artması günü-gündən daha qabarıq hiss edilirdi. Bu tendensiyaya uyğun olaraq Xəzər hövzəsi bir çox dövlətlərin, xüsusilə də ABŞ-ın milli maraq regionuna çevrilmişdir.(3, s.87) Bundan başqa nəzərə almaq lazımdır ki, dünyada hasil edilən neftin əhəmiyyətli hissəsini, yəni, üçdə iki hissəsini ABŞ, Yaponiya və Qərbi Avropanın inkişaf etmiş ölkələri istehlak edirlər. Bu ölkələrin hərbi ayrı-ayrılıqda böyük siyasi və iqtisadi və hərbi potensiala malikdirlər. Deməli, zəngin neft ehtiyatlarına malik olan Azərbaycan Respublikası ilə qeyd edilən dövlətlər arasındakı münasibətlərin formalaşması və inkişaf etdirilməsində istər-istəməz neft amili öndə duracaqdır. Bu ölkələrlə yenicə müstəqillik əldə etmiş Azərbaycan Respublikasının siyasi, iqtisadi və digər sahələrdə uğurlu əlaqələrin qurulub inkişaf etdirilməsi ölkənin suverenliyinin möhkəmləndirilməsi və dünya dövlətləri arasında ciddi yer tutması baxımından çox əhəmiyyətli idi. Göründüyü kimi, ilk baxışdan belə təsəvvür yaranır ki, neft amili yalnız Azərbaycana müsbət nəticələr vəd edir. Lakin bir mühüm məqamı diqqətdən qaçırmaq olmaz. Azərbaycan Respublikasının yuxarıda qeyd etdiyimiz dövlətlərlə uğurlu əlaqələr inkişaf etdirməsi, xüsusilə də neft sahəsində əməkdaşlıq etməsi regionda maraqları olan digər dövlətləri qıcıqlandırmaya bilməzdi. Belə dövlətlər arasında ilk növbədə yaxın qonşu Rusiyanı göstərmək lazımdır. Belə ki, uzun zaman kəsiyində regionda total nəzarəti həyata keçirən bir dövlət baş verən geosiyasi dəyişiklikləri sakit müşahidə edəcəyi inandırıcı olmazdı. Deməli, neft müstəqillik yoluna təzəcə qədəm qoymuş Azərbaycana siyasi, iqtisadi və hərbi tərəqqi vəd etməklə yanaşı, həm bir sıra mürəkkəb səddləri dəf etməyi də tələb edirdi. Göründüyü kimi, gənc Azərbaycan dövlətinin uğurlu gələcəyi təsvir etdiyimiz yeni yaranmış mürəkkəb geosiyasi vəziyyəti düzgün qiymətləndirməkdən, regionda barışmaz maraqlara malik olan dövlətlərin maraq səviyyələrini düzgün təhlil edərək qiymətləndirməkdən və bütün incəlikləri nəzərə almaqla xarici siyasi strategiyanın uğurlu müəyyənləşdirilməsindən çox asılı idi. Lakin acı tarixi bir həqiqəti də qeyd etmək vacibdir. Müstəqilliyinin ilk illərində Azərbaycanı idarə edənlərin səriştəsizliyi qeyd etdiyimiz istiqamətdə hər hansı bir uğurdan danışmağa imkan vermir. Belə ki, düzgün müəyyənləşdirilməmiş xarici siyasi kursu həyata keçirən AXC-Müsavat hakimiyyəti uyğun olaraq ölkənin beynəlxalq aləmə inteqrasiyası sahəsində heç müsbət nəticə əldə bilməmişdir. Deməli, Azərbaycanın zəngin enerju daşıyıcıları ehtiyatlarından ölənin rifahı yolunda demək olar ki, istifadə edilmirdi. Bu da özünü daxili-siyasi vəziyyətdə kəskin şəkildə biruzə verirdi. Belə bir yarıtmaz xarici siyasət fonunda Ermənistanın ölkəmizə qarşı əsassız ərazi iddiaları və hərbi təcavüzü vəziyyəti daha da acınacaqlı etmişdir. Ölkədə aşkar müşahidə edilən siyasi-iqtisadi böhran başlamışdır. Artıq ölkədə daxili-siyasi xaos özünün pik həddində idi. Artıq qeyd etdiyimiz kimi, xarici siyasi strategiyanın düzgün müəyyənləşdirilməməsi ölkənin münasibətlər sistemində layiqli yer tutmasını birbaşa əngəlləyirdi. Dünya dövlətləri ilə uğurlu siyasi, iqtisadi əlaqələr qurmaqdan isə yarnmış ağır vəziyyətin tamamilə aradan

qaldırılması real deyildi. Deməli, mütləq yeni bir siyasi gücə, rasional məntiqi düşüncəyə malik, xalqını vahid ideologiya ətrafında birləşdirə biləcək, ən əsası, yeni yaranmış geosiyasi vəziyyətə uyğun olaraq xarici siyasi strategiya qura biləcək və beynəlxalq sistemin əsas konturlarını müəyyən edə bilmək isdedadına malik bir liderə kəskin ehtiyac hiss edilirdi. Bütün bunların öhdəsindən tək bir insan-Azərbaycana uzun illər rəhbərlik etmiş, SSRİ kimi nəhəng dövlətin rəhbərindən biri olmuş, Heydər Əliyev gələ bilərdi. Yalnız o, Azərbaycanın zəngin enerji ehtiyatlarından dövlətin möhkəmlənməsində, müstəqilliyinin təminatında və xalqının rifah halının yüksəldilməsində uğurlu istifadə etmək bacarığına və əzminə malik idi. Azərbaycan Respublikasının zəngin enerji daşıyıcıları, xüsusilə də neft ehtiyatları ümummilli lider Heydər Əliyev tərəfindən Azərbaycan xalqının çoxtərəfli maraqların təmin edilməsinin mühüm bir vasitəsi kimi qiymətləndirilirdi. Yəni, Heydər Əliyev nefti təkcə iqtisadi amil kimi deyil, həm ölkəmizin yerləşdiyi regionda cərəyan edən mürəkkəb geosiyasi şəraitdə əməkdaşlıq elementi kimi dəyərləndirirdi və bu sahəyə xüsusi diqqətin yetirilməsini çox vacib sayırdı. Belə ki, ümummilli lider bütün potensialını neftdən dövlətimizin milli maraqlarının təmin edilməsi istiqamətində istifadə edilməsi üçün səfərbər etməyə çalışırdı. Bütün bunlarla yanaşı Heydər Əliyev Azərbayacnın ərazi bütövlüyünün təmin edilməsi istiqamətində gerçəkləşdirdiyi xarici siyasi kursda neft amilindən maksimum yararlanmağa çalışırdı. Heydər Əliyev olduqca böyük uzaqgörənliklə duymuşdur ki, Azərbaycan Respublikasının xarici siyasətində ən mühüm amil məhz neftdir və diqqətdən kənarda qoymaq olmaz. Heydər Əliyev ikinci dəfə ali siyasi hakimiyyətə gələnədək mövcud olan AXC-Müsavat hakimiyyəti böyük yalnışlıqla neftə ancaq iqtisadi amil kimi baxırdılar. Sözsüz ki, onlar bu cür yanaşma tərzinə uyğun olaraq, mövcud geosiyasi durumu da nəzərə almırdılar. Bu da Azərbaycana qarşı xarici təziqlərə yol açırdı. Məsələn, Rusiya ilə İranın ölkəmizə qarşı açıq təhdid və təziqlərini xatırlamaq kifayətdir. Yeni yaranmış geosiyasi vəziyyətin nəbzini böyük ustalıqla tutan Heydər Əliyev Azərbaycanın yeni neft strategiyansının hazırlanmasını vacib saydı. Bu strategiyanın başlıca prinsipi balanslaşdırma siyasətindən ibarət idi. Belə ümummilli lider Azərbaycanda ali siyasi hakimiyyətə ikinci gəlişinin elə ilk günlərindəcə Avropa dövlətlərinin və ABŞ-ın regionun enerji ehtiyatları ilə bağlı maraqlarını tarazlamağa çalışmaqla Azərbaycanın milli maraqlarının təmin olunmasına çalışırdı. Heydər Əliyevin müdrikliyi və uzaqgörənliyi ilə müəyyənləşdirilən yeni neft strategiyası tezliklə öz müsbət nəticəsini verdi. Yəni, 1994-cü ildə regionda maraqları olan bütün dövlətlər bir araya gəlməyə razı olaraq "Əsrin müqaviləsini" imzaladılar.(5, s.187) Əsrin müqaviləsinin imzalanması bir daha sübut etdi ki, Azərbaycan nefti Azərbaycan Respublikasının xarici siyasətində olduqca əhəmiyyətli yerə və rola malikdir. Belə ki, yuxarıda qeyd etmişdik ki, əvvəlki hakimiyyətin səriştəsizliyi Azərbaycan dövlətçiliyinə qarşı xarici təhdidləri artırmışdır. Ən təhdid və təziq isə Rusiya tərəfindən gəlirdi. Rusiya şirkəti olan Lukoylun əsrin müqaviləsinin şərtlərinə əsasən 10% paya sahib olması bu ölkənin Azərbaycana münasibətində əhəmiyyətli dərəcədə yuçşalmanı şərtləndirmiş oldu. Rusiya öz maraqlarını təmin etmək üçün Azərbaycanda daxili-siyasi gərginlik yaratmaqdan da çəkinmirdi. Deməli, əsrin müqaviləsinin Rusiya şirkətinin iştirakı həmçinin Azərbaycanda daxili-siyasi vəziyyətə də müsbət təsir etdi. Rusyanın ardınca İrandan gələn təhlükənin də qarşısının alınması gənc Azərbaycan dövləti üçün həyati əhəmiyyət kəsb edirdi. Bunun ümummilli lider əsrin müqaviləsində İranın da iştirakını təklif etmişdir və İranın 5% paya malik olmasına razılığını bildirmişdir. Lakin ABŞ və Qərbin kəskin etirazı bu ideyanın reallaşmasının qarşısını aldı. Buna baxmayaraq, Heydər Əliyev tərəfindən belə təklifin irəli sürülməsi nəticəsiz qalmadı. Belə ki, İran tərəfi ən azından Azərbaycanın İranla da əməkdaşlığa meyl göstərməsini müşahidə etmiş oldu. Bunun öz də Azərbaycana müəy-

yən siyasi dividentlər qazandırdı. Belə ki, İranın da Azərbaycana qarşı siyasətində nəzərəçarpacaq yumşalma hiss edilməyə başladı.

Azərbaycan neftinin dünya bazarına çıxarılması yolları da Azərbaycan xarici siyasətinin qarşısında duran mühüm məsələlərdən idi. Çünki, bu məsələnin özü də maraqlı ölkələr arasında balansın gözlənilməsini tələb edirdi. Həmçinin Azərbaycan elə bir nəqliyyat yolu seçməli idi ki, milli maraqlarına cavab versin. Belə ki, iqtisadi baxımdan nisbətən sərfəli olmasına baxmayaraq, neft ixrac kəmərinin Ermənistanın ərazisindən keçməsi milli maraqlarımıza böyük zərbə olardı. Bu baxımdan Ermənistan bu gəlirli layihədən kənarda saxlanıldı və kəmərin marşurutu dəyişdirilərək Bakı-Tbilisi-Ceyhan istiqamətində çəkilməsi qərara alındı. Göründüyü kimi, Azərbaycan torpaqlarının 20%-ə qədərini işğalda saxlayan Ermənistanı layihədən təcrid etməklə ölkəmiz neft amilindən də məharətlə istifadə etmişdir. Bu bir daha sübut edir ki, Azərbaycan ən mühüm xarici siyasi kursunda neftdən ən təsirli vasitə kimi istifadə etmişdir. (6)

Qeyd etdiklərimizdən əlavə Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş Azərbaycanın uğurlu neft strategiyası ölkəmizin dünya iqtisadiyyatına uğurlu yaxınlaşmasını şərtləndirmişdir, eyni zamanda Azərbaycan Respublikası Avraatlantik məkanda uğurlu beynəlxalq əməkdaşlıq və münasibətlər üçün güclü zəmin formalaşdırmışdır. Müşahidələr göstərir ki, Azərbaycanın müasir beynəlxalq münasibətlər sistemində özünə layiqli yer tutmasında və beynəlxalq hüququn kifayət qədər siyasi çəkiyə malik, ciddi bir subyektinə çevrilməsində məhz neft amili önəmli rol oynamışdır. Azərbaycan Respublikasının xarici siyasətində neft amilinin çəkini əhəmiyyətli dərəcədə yüksəlməsində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müəyyənləşdirdiyi uğurlu neft strategiyasının başlıca rol oynamışdır. Belə ki, bu uğurlu neft strategiyası Azərbaycan Respublikasının nəinki dünyanın ayrı-ayrı dövlətləri ilə, həmçinin NATO, AŞ, İKT, GUAM kimi nüfuzlu beynəlxalq və regional təşkilatlarla da hərtərəfli əlaqələrinin inkişafını şərtləndirmişdir.

### *ƏDƏBİYYAT*

1.Heydər Əliyevin neft strategiyası. Azərbaycan Prezidentinin katibliyi. Cild I. Bakı, 2001.
2.Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, Azərbaycan nəşr.,2005, 752s.
3.Mert Bilgin. Avrasya enerji savaşları. İstanbul, 2005, 384s.
4.Адамс Т. Нефть Каспия и политика Азербайджана. «Бакинский рабочий» 2003, №11
5.Шорохов В. Нефть и политика Азербайджана. М., 1997, 211с.
6.Кулиев Г. Мифы и реальности нефтяной стратегии Азербайджана. «Центральная Азия и Кавказ», 1994, №4

**ХИКМЕТ МАМЕДОВ**

**НЕФТЯНОЙ ФАКТОР ВО ВНЕШНЕЙ ПОЛИТИКЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

В системе современных международных отношений произошли серьезные изменения. Так как к ряду актуальных вопросов международных отношений на современном этапе можно относить борьбу супердержав мира за мировую нефть. Нефтяной фактор играет ощутимую роль во внешней политике Азербайджанской Республики. Эта проблема глубоко анализируется в статье.

**HIKMET MAMEDOV**

**OIL FACTOR IN THE FOREIGN POLICY OF THE AZERBAIJAN REPUBLIC.**

Serious changes have happened in the system of modern international relations. One of cardinal problems of the modern international relations is fight for world oil. Oil factor plays the important part in the foreign policy of the Azerbaijan Republic. This problem have been analysed in the article in detail.

***Rəyçilər: s.e.n.E.Mirbəşiroğlu, t.e.d.M.Qasımlı.***
***BDU-nun Politologiya və sosiologiya kafedrasının 03 oktyabr 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №02).***